# XALQ ŞAİRİNİN EV-MUZEYİ AÇILDI –

## *Şəki şəhəri Ə.Haqverdiyev küçəsi, 73*



Artıq buranın daşından, torpağından, gülündən, ağacından müxtəlif sənədlərinə, eksponatlarına qədər hər şeyi dahi şairi xatırladır, onun möhtəşəm həyat-yaradıcılığına işıq salır. Elə məkanın uzun illər uşaq bağçası kimi fəaliyyət göstərməsi də ev sahibinin vətənpərvərliyinin, xalqına, yurduna bağlılığının, insana sevgisinin göstəricisidir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Şəki şəhərində Bəxtiyar Vahabzadənin ev-muzeyinin yaradılması və yaşadığı binaya xatirə lövhəsinin vurulması haqqında" hələ 2015-ci il oktyabrın 27-də Sərəncam imzalamışdı. Sənədin icrası ilə əlaqədar Şəki şəhəri Ə.Haqverdiyev küçəsi, 73 ünvanında 2017-18-ci illərdə təmir, bərpa və bədii tərtibat işləri aparılmaqla yanaşı, qonşuluqda uşaq bağçası üçün 40 yerlik bina da tikilirdi. Və həmin 3 saylı körpələr evinin açılışının da şairin ev-muzeyi ilə bir gündə reallaşması əsil rəhbər qayğısının, məntiqinin, uzaqgörənliyinin nəticəsi idi – ölməz Bəxtiyar müəllimin ruhu da yalnız belə şad ola bilərdi...

Beləliklə, avqustun 31-də Şəkidə Xalq şairi, ədəbiyyatşünas alim, ictimai xadim Bəxtiyar Vahabzadənin ev-muzeyinin açılış mərasiminə toplaşan Mədəniyyət Nazirliyi rəsmiləri, şəhər rəhbərliyi, tanınmış ziyalılar, ictimaiyyət nümayəndələri qüdrətli söz ustadının keçdiyi yoldan, müasir Azərbaycan poeziyasının inkişafındakı xidmətlərindən danışılıb, elmi-ictimai fəaliyyətinin müxtəlif məqamlarına toxunulub.

Toplaşanlar Azərbaycanın ən nadir tarixi şəhərlərindən olan Şəkinin zaman-zaman vətənə Mirzə Fətəli Axundzadə, Fətəli xan Xoyski, Rəşid bəy Əfəndiyev, Şəfiqə Axundova, Salman Mümtaz, Sabit Rəhman, Cövdət Hacıyev, Bəxtiyar Vahabzadə, Rasim Ocaqov, Emin Sabitoğlu kimi dəyərli ziyalılar, yaradıcı şəxsiyyətlər bəxş etdiyindən söhbət açıblar. Vurğulanıb ki, gələcək nəsillər üçün zəngin irs və dəyərli nümunələr yadigar qoyan bu insanların xatirəsi ölkəmizdə, o cümlədən Şəkidə daim əziz tutulur.

Bəxtiyar Vahabzadə Azərbaycan və ümumən türk dünyası ədəbiyyatında özünəməxsus yeri, dəstxətti olan şairlərdən, istisnasız olaraq millətin bütün nümayəndələrinin, hər bir vətəndaşın sevgisini, rəğbətini qazanmış nadir söz sənətkarlarındandır. O, həm də istiqlal mücahidi, Azərbaycan xalqının taleyüklü məsələlərinə həssas yanaşan, milli mənafeləri müdafiə edən bir ziyalı idi.

Dahi mütəfəkkirin yaradıcılığı bədii fikrimizin zənginləşməsində mühüm rol oynayıb. Bütün varlığı ilə sevdiyi doğma xalqının arzu və istəkləri, hiss və duyğuları onun ədəbi-bədii yaradıcılığının mayası, cövhəri olub. Şairin mübariz qələmi bütün dövrlərdə onun saf məslək və əqidəsinə xidmət göstərib. Azərbaycan dilinin saflığı, təmizliyi və zənginləşməsi uğrunda mübarizə onun yaradıcılığının əsas istiqamətlərindən birini təşkil edib.

Bəxtiyar Vahabzadənin qızı Gülzar Vahabzadə də atasının ev-muzeyinin yaradılmasında əməyi olan bütün qurumların rəhbərlərinə ailəsi adından minnətdarlıq edib.

Sahəsi 70 kvadratmetr, 3 otaqdan ibarət inzibati və fond otaqları olan muzey şairin ailəsi tərəfindən təqdim edilmiş sənəd, kitab, əlyazma, foto və arxiv sənədləri, şəxsi əşyalar əsasında formalaşdırılıb. Burada ümumilikdə 735 ədəd eksponat nümayiş olunur.

Azər Əlihüseynov

